**Sosial sahədə xidmətlərdən istifadə sadələşdirilir**

Dövlət Sosial Müdafiə Fondu tərəfindən vətəndaşların istifadəsinə yeni elektron xidmət verilmişdir. Bundan sonra sığortaolunanlar fərdi hesablarına toplanan pensiya kapitalları barədə məlumat ala biləcəklər. DSMF-nin açıqlamasına əsasən, «Sığortaolunanlar tərəfindən məlumatların əldə edilməsi» adlı müasir məlumatlandırma sistemi Fondun rəsmi internet informasiya ehtiyatında olmaqla yanaşı, «Elektron Hökumət» Dövlət İnformasiya Sistemi (EHDİS) portalında yerləşdirilmişdir.

Xidmətdən yararlanmaq üçün ilk vaxtlar elektron imza tələb olunurdusa, hazırda bu tələb aradan qaldırılıb və istifadə qaydaları daha da sadələşdirilib. Hər bir vətəndaş, sadəcə, özü haqqında müvafiq bilgiləri daxil etməklə bu elektron xidmətin daimi istifadəçisinə çevrilə bilir.

Bu xidmət vasitəsilə istənilən sığortaolunan Dövlət Sosial Müdafiə Fondu tərəfindən açılmış fərdi şəxsi hesabında illər üzrə əks olunan pensiya kapitalına nəzarət etmək imkanını əldə edir. Sistem şəffaflığın daha da artmasına şərait yaratmaqla yanaşı, həm işəgötürənlər üzərində ictimai nəzarətin təşkilinə, həm də yaxın gələcəkdə avtomatlaşdırılmış pensiya təyinatına imkan verəcəkdir. Başqa sözlə, hər bir işləyən şəxs özü üçün sosial sığorta haqlarının vaxtında və tam məbləğdə köçürülməsinə nəzarət etmək və gələcəkdə etibarlı pensiya təminatı əldə etmək imkanına malik olacaqdır. Yaxın perspektivdə bu xidmətin daha da inkişaf etdirilməsi, eyni zamanda vətəndaşların 2006-cı ilə qədər mövcud olan pensiya kapitalları barədə məlumatların elektron qaydada sistemdə yerləşdirilməsi nəzərdə tutulur.

***Elektron xidmətlərin çeşidləri genişlənir***

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin, torpaq pay mülkiyyətçilərinin və digər şığortaedənlərin məcburi dövlət sosial sığorta haqları üzrə Fondun orqanlarına ödənişlərinin real vaxt rejimində qəbulu da davam etdirilməkdədir. Artıq Dövlət Sosial Müdafiə Fondunun 36 yerli orqanı üzrə 223 712 sığortaedən haqqında məlumat KÖMİS sisteminə inteqrasiya olunub. Bu ilin iyun-oktyabr ayları ərzində 19.027 sığortaedən tərəfindən 42.876 əməliyyat həyata keçirilərək ümumilikdə 3.642.294,54 manat məbləğində məcburi dövlət sosial sığorta vəsaitinin ödənişi həyata keçirilib.

Dövlət Sosial Müdafiə Fondunun internet saytında yerləşdirilən «Elektron xidmətlər» bölməsi interaktiv və informativ olmaqla 20-yə qədər xidməti əhatə edir. Yaxın vaxtlarda bu xidmətlərin sayının 25-ə çatdırılması nəzərdə tutulur. Dövlət Sosial Müdafiə Fondunun (DSMF) sədri Səlim Müslümov «Azərbaycan 2020: Gələcəyə baxış» mövzusunda keçirilən beynəlxalq konfransda 2020-ci ilədək ölkəmizdə pensiya-sığorta sisteminin idarə edilməsinin tamamilə avtomatlaşdırılacağını bildirmişdir: «2020-ci ilədək DSMF-nin bütün istiqamətləri avtomatlaşdırılacaq. Bu günədək Dövlət Fondunun orqanlarının 84%-nin fəaliyyəti avtomatlaşdırılıb, 2020-ci ilədək isə Fondun bütün struktur bölmələrinin işi avtomatlaşdırılacaq». Komitə sədrinin sözlərinə görə, bu gün Azərbaycanda pensiyaların verilməsi üçün 600-dən artıq bankomat fəaliyyət göstərir. 2020-cu ilədək pensiya kartları çip kartlar olacaq və Fondun bütün ADSL qoşulmaları optik-lif rabitə xətləri ilə əvəz ediləcək. Pensiyaların təyin olunması və hesablanması da tam avtomatlaşdırılacaq. 2020-ci ilədək regional tədris mərkəzinin yaradılması da planlaşdırılır.

Bundan başqa, pensiyaların ödənilməsi üzrə agent banklar olan Azərbaycan Beynəlxalq Bankı (ABB) və KapitalBank yaxın vaxtlarda yeni bankomatlar istismara verəcək, bunlar əhalinin pensiyaların alınması imkanlarını yaxşılaşdıracaq.

***2013-cü il üçün pensiya üzrə gəlir və xərclərin məbləği müəyyənləşib***

DSMF-nin 2013-cü ildə gəlirləri və xərcləri 2,633 milyard manat səviyyəsində təsdiq edilib ki, bu da 2012-ci ilin göstəricisindən 7,29% çoxdur. Proqnozlara əsasən, Fondun gəlirləri, əsasən, büdcə təşkilatlarının icbari sosial sığorta ayırmalarından daxilolmalar hesabına 1,55 milyard manat səviyyəsində formalaşdırılıb. Gəlirlərin strukturunda büdcə təşkilatlarının sosial sığorta ayırmaları 539,19 milyon manat, büdcə təşkilatlarının əməkdaşları üzrə 73,526 milyon manat, dövlət tərəfindən ayırılmış maddi yardımlar, büdcə təşkilatlarının büdcədənkənar vəsaitləri, həmçinin ali

təhsil müəssisələrində maliyyələşdirmənin yeni mexanizminin tətbiqi hesabına daxilolmalar 77,442 milyon manat və digər sosial sığortalananlardan 860 milyon manat həcmində planlaşdırılır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan sosial sığortalanmış fiziki şəxslərdən daxilolmalar 33,5 milyon manat, başqa gəlirlər 5,5 milyon manat məbləğində proqnozlaşdırılır. 2012-ci ildə 1,044 milyard manat təşkil edən dövlət büdcəsindən ayırmalar gələn il 1,077 milyard manat səviyyəsində olacaq.

2013-cü ilin proqnozlarında DSMF-nin xərcləri strukturunda ödəmələr bütovlükdə əhaliyə 2,57 milyard manat, həmçinin əmək pensiyalarının ödəmələrinə 2,5 milyard manat düşür (əmək pensiyalarının baza hissəsinin ödəməsinə 1,358 milyard manat, sığorta hissəsinə isə 1,142 milyard manat müəyyən edilib). «2009-2015 illərdə Azərbaycanda sığorta-pensiya sisteminin inkişafı üzrə Dövlət Proqramı»nda nəzərdə tutulmuş tədbirlərin icrası üçün xərclərə 1,43 milyon manat vəsait yönəldiləcək.

Arzu İBRAHİMOVA